**Bir qrup gənc yazar "Yumruq" adlı yeni təşkilat yaradıb. "Kaspi" qəzeti təşkilat üzvlərinin yazılarını təqdim edir.**

# Qaranlıq gələcək

*(Hekayə)*



**Elçin Quluzadə**

O gözəl xəyallar qura bilirdi, ancaq ürəyincə yaşamağı o qədər də yaxşı bacarmırdı. Əslində bu kiçik savaşlardan qaçaraq o, daha böyük savaşlara - insanın özüylə mübarizəsinə başlamışdı. O, olmaq istədiyi - beynində qurduğu obrazı öz yaşam tərziylə müqayisə edir, səhvlərini başa düşürdü. Gəldiyi son nəticə isə heç də özü kimi ola bilməməsiydi. Əslində O hər kəs kimi olacağını güman etməyib, öz müsbət keyfiyyətlərini də itirib məhvə sürüklənmişdi. Bu davranışları insanlar üçün də qəbuledilməz və inkar edilən bir faktor kimi onun təcrid olmağına səbəb olmuşdur.

Valideynləri ilə bir o qədər də xoş münasibətdə deyildi. Axı əgər birinin atasıyla söhbəti, ancaq ona əmrlər və tənqidlərdən ibarətdirsə, o, necə xoşbəxt sayıla bilər?!

Atasının son sözləri artıq neçə gün idi ki, qulağında cingildəyirdi; "Sənin kimi oğulu Allah əlimdən alsın, məsuliyyətli işlərdən yan qaçırsan. Dərslərinlə ciddi maraqlanmırsan. Əylənməkdən başın açılmır..."

O, nələrisə dəyişmək üçün çox çalışmışdı, ancaq nə etsin, bacarmamışdı. O bacarıqsız və əfəlin biri idi.

İntihar...

Görəsən o bunu edə biləcək qədər cəsarətli idimi??

Ölümdən niyə bezəsən ki??

O yalnız bir dəfə olur.

O möhtəşəm hisslər.

Ancaq çəkdiyi o qədər əzablar onu boğaza yığmışdı. Bacarıqsızlığı bir çox özü kimi acizlərin o qədər şansdan yalnız bir çıxış yolu qalır.

Artıq dəqiq fikrə gəlmişdi. İntihar edəcəkdi. Bacaracaqdı. Amma görəsən bir aydı keçirdiyi vaxt nəyə görəydi? O imtina edə bilmədiyi həyat nəydi, görəsən?? Amma etdiyi hərəkətlərdən hər şey bəlli idi. Artıq kənardakılara o qədər də vecsiz deyildi. Keçib gedərkən yoldakı ağacların üzərindəki böcəklərə də baxırdı.

Necə intihar edəcəyi də beynini yaman qarışdırmışdı. O barədə araşdırmalar aparmışdı. Onsuz da, edilən hər bir intihar əzabla bitir və kənardakılar üçün az da olsa əzizsənsə əzab çəkirlər. İki gün sonra evdə tək qalması, onun üçün əsl fürsət idi. Bu qədər vaxt keçməsinə baxmayaraq, fikrində qətiydi. Evdəki ən iti bıçağı götürdü. Qapını bağlasa da, qıfıllamadı. Sanki, yenə də kiminsə gəlib onu xilas edəcəyinə gümanı vardı.

Yenə də qorxu hissi ondan əl çəkmirdi. İndi isə düşündüyü ölmək istəyinin, o müdhiş hissin ölüm qorxusuna qalib gəlməsiydi. Son dəfə gözlərini möhkəm örtdü və nalə çəkərək, hər iki əlindən dərin bir yara açdı. Açdığı yaralar ona fiziki ağrılar versə də, özündə ruhi rahatlıq hiss edirdi. Vaxt keçdikcə, bədənin süstləşdiyini hiss etdikcə artıq, o təsviredilməz anın yaxınlaşdığını hiss etmişdi. Özündən asılı olmayaraq rəflərdəki kitablara baxdı. Çox sevdiyi yazıçı C.Pavese kitabxanasına ayrı bir gözəllik verirdi. Gözü Pavesenin "Yaşam gündəliyi" kitabına sataşarkən ağlına gələn niyə özündən ətrafındakılara bir kiçik bir söz, ya da kiçik bir məktub buraxmamasıydı. Tələm-tələsik əlinə bir vərəq və qələm aldı və bir şeylər yazmağa başladı. Bir cümlə yazmışdı ki, əlindəki qələm yerə düşdü və stuldan yıxıldı.

Zəngin çalınması onu qorxuya salmışdı

Heç kimin onu qarşılamağa çıxmamağı anasının qəlbinə toxundu. Onu təşvişə saldı. Qaçaraq oğlunun otağına daxil olmağı onu gözləmədiyi səhnəyə şahid elədi. Çox heyf ki, o oğlunun daha yüksək zirvələrdə görmək istəmişdi. İndi isə oğlu yerdə can verərək, çapalayırdı. Qısa müddətdə donub, qaldı. Nə edəcəyini bilmədi. Oğlunun başını dizlərinə qoyub, saçlarını oxşadı. Qeyri-ixtiyari, stolun üzərindəki vərəqi göstərdi. Eşitdiyi son sözlər, anasının son duaları və oxşamaları oldu. Anasının ah-naləsi bütün məhəlləni bürüdü. Oğlu üçün artıq edə biləcəyi bir şey qalmamışdı. O, bir böyük səhv etmişdi. Stolun üzərindəki vərəqi götürdü. Vərəqsə onu daha da kükrədəcək bu sözlər yazılmışdı:

"Bağışlayın, sizin istədiyiniz kimi bir övlad ola bilmədim".